**ZƏRİFƏ MƏMMƏDOVA**
**S.Vurğun 137**
**Filologiya üzrə fəlsəfə doktoru, dosent**
**ATU**

# MÜXTƏLİFSİSTEMLİ DİLLƏRDƏ SİFƏTLƏR DİLÇİLİK TƏDQİQATLARINDA

## XÜLASƏ

İngilis dilini professional məqsədlərlə öyrənən və Azərbaycanın ali və orta məktəblərində Azərbaycan ədəbiyyatını tədris edən və ya tərcüməçi, filoloq kimi fəaliyyət göstərən ali ixtisas məktəblərinin məzunları mətnləri, o cümlədən formal və qeyri-formal xarakter daşıyan mətnləri, müasir və klassik ədəbiyyat nümunələrini dinləyib öz münasibətlərini, mövqeyini, fikir və ideyalarını bildirmək qabiliyyətinə yiyələnməlidirlər. Əksər hallarda ixtisası dil olan fakültələrdə dili professional məqsədlərlə öyrənən tələbələr xarici ədəbiyyat nümunələri olan və dünya ədəbiyyatının xəzinəsinə daxil edilmiş əsərlərlə tanış deyillər. Bəzən onlar həmin əsərlər haqqında heç bir məlumata malik deyil. Onu da xüsusilə qeyd etmək lazımdır ki, klassik ədəbiyyat nümunələrində personajların istifadə etdiyi nitq modelləri, bu gün istifadə edilən dildən əhəmiyyətli dərəcədə fərqlənir. Buna görə də audio və video materialların seçiminə diqqət yetirmək lazımdır. Müasir universitet tələbəsi təkcə bu və ya digər sahədə ixtisaslaşmış kadr kimi formalaşmamalıdır. O, həm də ünsiyyətə hazır olmalı və müxtəlif insanlarla ünsiyyət qurmaq, komanda tərkibində işləyə bilmək, ətrafdakılara motivasiya verə bilmək kimi tamamilə yeni sosial bacarıqlara yiyələnməlidir. Məhz bu baxımdan ədəbi xəzinə əlçatan olmalıdır. Qloballaşma prosesinin labüdlüyünü və bu prosesə inteqrasiyanın qaçılmaz olduğunu nəzərə alaraq, elm və təhsil sahələrinin qloballaşma proseslərinə adaptasiyası dildə onun təmin olunmasını şərtləndirən amillər sırasına daxil olmuşdir. İlk öncə ona görə ki, məhz bu sahələrdə təkcə yeni bilik və texnologiyalar deyil, həm də insanın fikirlərinin ifadəsinin bu və ya digər formalarının yeni mexanizm və üsulları da gündəmi zəbt edir.

**Açar sözlər:** koqnitiv, nitq, post nominal, sifət, material

Koqnitiv yanaşmaya görə nitqin yaranmasına təfəkkür prosesi kimi baxılır, eyni zamanda, bu da koqnitiv və dil strukturlarını onların daim birgə fəaliyyətində və çulğalaşmasında nəzərdən keçirir, amma buna görə prosesin özünün baş verməsi üçün insan beynində yalnız operativ mexanizmlərin olmasına deyil, həmçinin tətbiqinin xüsusi "stasionar" bazası olmasını tələb edir. Daxili leksikon (danışanın yaddaşının dəyişməyən hissəsi) nitq fəaliyyətinin vacıb komponenti kimi deyil, onun təmin olunması sistemi kimi öyrənilir.[1,s.20] Koqnitiv semantika indiyə qədər cavabı çox çətin görünən semantik inkişaf, daha doğrusu, sözün semantik inkişafı məsələlərinə aydınlıq gətirdi.

Hər bir söz ayrılıqda öyrənilə bilən və qrammatik tərkiblərdə, leksik mənada və sair tədqiq oluna bilər. Danışıq aktı dilin yeganə realizə imkanıdırsa, burada baş verən fizioloji və psixoloji proseslər ani və ötəri xarakter daşısa da eyni zamanda bu prosesdə hər dəfə təkrarlanan konstant əlamətlər var ki, bunlar baş verən danışıq aktının arxasında dil sisteminin durmasından xəbər verir. M.Peşe qeyd edir ki, təhlil metodları vardır ki, onların linqvistikaya aidiyyəti yoxdur və onlar ilk olaraq yaranıblar, diqqətə alınmayıblar. Sonralar bu metodlardan istifadə edildi və mahiyyəti başa düşməyə can atdılar. Əgər mümkünsə, bu "sössürəqədərki" (дососсюровской) forma adlana bilər. [8, s.304]. Söhbət müasir dilçilikdən gedirsə, bütün

"дососсюровские" metodlar yenidən aktuallaşır. Əgər koqnitiv dilçilik baxımından yanaşsaq, model üzrə dil faktlarının təhlili, informasiyanın hazırlanması və ötürülməsi dilçilikdə həmişə aktual olmuşdur.

Qeyd edək ki, kommunikasiya prosesində nitqin qavranılması və anlaşılması özünəməxsus yer tutur. Dinləyici nitq axınında sözü seçərək, onun mənasını açır. Qrammatik qaydalara yiyələnməklə, leksemlərin bir-birilə əlaqəsini açır, bununla da verbal məlumatın məzmunu, mənasını bildirir. Lakin aparılmış tədqiqatlar göstərmişdir ki, bu olduqca mürəkkəb bir işdir. Şübhəsiz ifadənin anlaşılmasında leksik-qrammatik biliklər mühüm rol oynayır. Lakin anlama əhəmiyyətdən mənaya doğru gedən passiv mexaniki hərəkət deyildir. Bu olduqca mürəkkəb psixoloji prosesdir.

U.Ceyf qeyd edir ki, "dil informasiyanın danışanın təfəkküründən qulaq asanın təfəkkürünə ötürülməsini təmin edir və bu informasiyaya hər biri mürəkkəb konfiqurasiyalar yaradan semantik vahidlərdən ibarət cümlələrdə təşkil olunan bir anlam kimi baxıla bilər." [7,s.241-266]

Bu mənada ingilis dilində post nominal sifətlərin semantik-koqnitiv tədqiqi maraq doğurur. Qeyd edək ki, sifətlər post nominal (postpozitiv) və prepozitiv vəziyyətdə məna dəyişikliyinə məruz qalırlar. Məsələn:

1. Every ***visible*** *star* is named after a famous astronomer.
2. Every *star* ***visible*** is named after a famous astronomer.

Birinci cümlədə post nominal sifət görünən ulduzlara ümumilikdə işarə edir.Bu "individual-level predicate" ifadə edir. İkinci cümlədə isə burada və ya orada görünən ulduza işarə edir. Burada" stage-level predicate" ifadə olunur. Bundan əlavə kifayət qədər nəzərə çarpan fərqləri " responsible " sözündə görmək olar:

1. I'm here to find the ***responsible*** *people*.
2. I'm here to find the *people* ***responsible***.

Birinci cümlədə prepozitiv vəziyyətdə "truthworthy"(etibarlı) "reliable",

post nominal (post pozitiv)vəziyyətdə isə "at fault" or "guilty" (of some misdeed known from the context) mənasını bildirir. Digər bir sifət vardır ki, xüsusi post nominal mənaya malikdir ki,bu da" *proper* "sözüdür. Məsələn: *the town* ***proper***, *Sweden* ***proper***.

Bir çox ifadələr vardır ki ,post nominal sifətlərə aid edilir: Məsələn:

1.Legal və ümumi terminlər: agent provocateur, battle royal, body corporate, body politic, corporation soul, cause celebre, court-martial, fee simple, fee tail, femme fatale, force majeure, God Almighty, heir apparent, heir presumptive, knight errant, language isolate, letters close, letters patent, letters testamentary, life everlasting, the light fantastic, malice aforethought (also *malice prepense*), persona non grata, mens rea, pound sterling, proof positive, spaghetti bolognese, sum total, time immemorial, times past, treasure trove (in the legal sense).

2.Rütbə, vəzifə adları: bishop emeritus, professor emeritus, attorney general, consul general, governor general, postmaster general, surgeon general, Astronomer Royal, Princess Royal, airman basic, minister plenipotentiary, minister-president, notary public, poet laureate, president-elect, prime minister-designate, prince regent, sergeant major, queen consort, prince consort, queen regnant, prince regnant, directorate-general, director-general və s.

3.Münasibətlərlə bağlı : in eagle displayed, lion passant guardant, griffin rampant, phoenix rising, bird vigilant və s.

4.Təşkilat adları: Alcoholics Anonymous, Amnesty International, ARCHIVE Global, Child United, Church Universal and Triumphant, Generation Next, Japan Airlines Domestic, Jet-Blue, Ruritan National, Situationist International, Socialist International, Verizon Wireless, Virgin Mobile, Weather Underground, Workers United.

5.Xəstəxana kodları: Code Amber, Code Black, Code Orange, Code Red

6.Yemək və içki adları: chicken supreme, whiskey və s.

7. Bəzi adlar: Henry the Eighth, Elizabeth the Second, Alexander the Great, Ethelred the Unready və s. Bəzən də *Junior* and *Senior*, Nero Redivivus kimi.

"Transformasion qrammatikanın əsaslarının tənqidi təhlili keçmiş Sovet linqvistikası üçün də əhəmiyyətli rol oynamışdır, bu dilçilikdə nitq fəaliyyətinin təhlili sahəsində böyük ənənəyə malikdir." - deyə C.Lakoff qeyd etmişdir.[3,s.331-342].Törədici qrammatikaya yanaşmada ardıcıl transformasiya haqqında ideya (bunun da cümlənin yaranmasında rolu vardır) öz mənasını tam itirməmiş, əslində isə bu Sovet psixologiyasında T. Nikolayevanın irəli sürdüyü kod keçidləri ideyasına yaxındır və ondan tənqidi istifadə etməklə bəzi görünən proseslər izah oluna bilər. [4,s..4] Deməli, nitq törəməsi termini altında biz nitq fəaliyyətini nəzərdə tuturuq, bu da nitqin səslənməyə başlaması və ya kağız üzərində müəyyən söyləmin əks olunmasıdır. Məhz bu terminin belə anlaşılması bizi belə bir suala da cavab verməyə vadar edir ki, bu prosesdə biz nəyi görürük? Bu sualın qoyuluşu generativ qrammatika ilə bağlıdır (birbaşa), belə ki, M.Hallideydə biz generativ qrammatikanın danışanın dil xüsusiyyətini əks etdirən qabiliyyəti kimi, öz xüsusi terminində ideal danışanın, dinləyənin linqvistik kompetensiyası kimi qəbul edirik. Bu tərif arxasında dayanan məntiqi mühakimələrin zəncirini bərpa edərək belə bir paradoksal fikrə gəlirik ki, generativ qrammatika, baxmayaraq ki, danışan, dinləyən üçün modeldir, eyni zamanda, həm də onun biliklərinin məcmusudur. Belə ki, onun fikrincə, "insan dilə aid biliklərə yiyələnərək, özündə qaydalar sistemini saxlayır ki, bu qaydalar xüsusi yolla yaranan səs və mənadır. Dili sistem şəklinə salan linqvistika faktik olaraq, insanda olan bu qaydaların bəzi fərziyyəsini təklif edir. [ 5,s.37].

J.Fodor yazmışdır:"Əlbəttə, müəyyən mənada demək olar ki, dil sistemi nitqin tərkibindədir. Məhz, nitqə bu dildə danışanın hər biri ünsiyyət prosesində sahib olur, ana dilinin əsasını mənimsəmiş uşaq, yaxud xarici dil əhatəsinə düşmüş yaşlı adam da" [6,s.145]. Kim bu gün yəqinliklə deyə bilər ki, danışanın nitqdən "çıxardığı" dil sistemi və hər şeydən əvvəl, uşaq tərəfindən mətndən linqvistik çıxardığı dil qrammatikanın həmin formasını alır.

70-ci illərdən etibarən bir çox tanınmış dilçilər təkid etdilər ki, "heç bir dilçilik nəzəriyyəsi müasir dövrdə öz obyektlərinin psixi reallığı məsələsindən yan keçə bilməz. İnkişaf etdirilmiş konsepsiya dilin fəaliyyət və törəməsində xüsusi modelinin irəli sürülməsinə aiddir və bu məsələ onun üçün xüsusilə vacibdir. Seçilmiş nöqteyi-nəzər bizi məcbur edir ki, insanın yalnız necə danışmasını deyil, onun bu zaman hansı biliklərə yiyələnməsini və bu biliklərdən necə istifadə etməsini aydınlaşdıraq, həmçinin belə bir suala cavab verməyə borcluyuq ki, danışan müəyyənləşdirdiyi dəlil və sübutların məzmununu necə seçir? Biz bu seçmə altında insanın istədiyi fikri dil şəklində formalaşdırmasına, ifadə etməsinə hazırlığını başa düşürük. Bütün törətmə prosesini daha tam əks etdirmək üçün dilin təsirini fikri, yaxud xəbər verilənin verballaşmasını bütün mərhələlərdə izləmək lazım gəlir. Amma belə bir təsir nitq qabağı və nitqin törəməsi mərhələlərində başlanır, bu zaman dil fikrin formalaşmasına daha artıq təsir edir. Adamın danışmaq istədiyi situasiyanın bölünmə prinsipi, həmçinin, hadisələrin, yaxud, insanın əvvəlki təcrübəsi ilə bağlı olan başqa məzmunun üzvlənməsi, şərtsiz onun dil bilikləri ilə bağlıdır. Onlar təkcə formalaşan sintaktik strukturun leksik vahidlərlə tanınması anı deyil, həmçinin sintaktik strukturun seçilməsi vaxtında da, yaxud gələcək cümlənin nominativ bloklarının müəyyənləşdirilməsində də hərəkətə gətirilir.

Dildə ifadə olunan fikrin qlobal obrazı dil ifadəsinin üsul və stereotiplərinə uyğun olaraq, üzvləşməli, strukturlaşdırılmalı və xətti nəql imkanlarına maksimum yaxınlaşdırılmalıdır.

Meydana gələn semantik çalarlar dil strukturları və dil vahidləri ilə əlaqələndirilməli, onların ümumi məcmusu müəyyən nümunə və ya sxemlə yekunlaşdırılmalıdır. Məzmunun dil forması ilə bu cür yaxınlaşdırılması ona görə asanlaşır ki, dünyanın və onun müəyyən fraqmentinin qavranılmasında, həmçinin stereotiplər, yaxud sxemlər fəaliyyət göstəriblər: xəbər aid olan insanın əvvəlki təcrübəsinə baxışla dərk olunmuşdur. Fikirlə söz arasında daha bir nitq –fikir prosesi vardır ki, bu da, insan təcrübəsinin təsnifatı və onun özünün xüsusi siniflərinin

çatdırılması ilə bağlıdır. Bu təcrübənin kateqoriallaşması ilə bizim üçün vacib olan fikirdə olanın nəzərdə tutulmuş mətnə aid edilməsi, bu sosiumda da adətən həmin təcrübənin fraqmentinin təsviri ilə verilir. Bu zaman koqnitiv struktur nitqlə uzlaşır. Nəzərdə tutulur ki, nitq söyləmi altında insan fikrən məlumu (xəbər veriləni) xahiş, yaxud informasiya sorğusu şəklində, nağıl yaxud təlimat və s. şəklində məlum stereotip məxrəcinə salır. Formalaşan fikir ayrı-ayrı tərkib hissələrinə bölünür, gələcək cümlənin strukturuna müvafiq uyğunlaşdırılır, fikrin obyektiv hazırlanmasının bu mərhələsi, başlanan nitq-fikir fəaliyyəti, gələcək cümlənin sxeminin hazırlanması axtarışı onun dil tipi ilə bağlanır.

## Ədəbiyyat


1.Abdullayev Ə.Ə. Koqnitiv dilçiliyin əsasları. Bakı: 2008. 248s.
2. Veysəlli F. German dilçiliyinə giriş. B.2003. Təhsil, NPM. s. 297
3.Лакофф Дж. //НЗЛ, вып.X Лингвистическая семантика. М., 1981, вып.XXIII стр.331-342
4.Николаева Т.М. От звука к тексту. М., 2000. стр 4. 263 стр.
5.Halliday M.A.K. Categories of the theory of qrammar||word, 1961, №17 , 292 p.
6.Fodor J.D. Constraints on gaps is the parse a significant influence. Explanations for language universals. N.Y., Amsterdam: Mouton, 1984, 381p.
7.Чейф У.Л. Значение и структура языка. Москва, 1975, 306 с.
8.Пешё М. Контент – анализ и теория дискурса // Квадратура смысла. Французская школа дискурса. М: Прогресс, с. 302-336.
9.Martin J.R., C.I.M. Matthiessen, and C.Painter. Working with Functional Grammar. London: Arnold. 1997.
10.Matthiessen, C.M.I.M. Interpreting the textual metafunction (pp. 37-81). In Davies M. and L. Rabelli (eds), Advanced in Systemic Lingustics. London: Printer.
11.Mathesius, V. On linguistic characterology. Actes du ler Congres International des Linguistes, 1928, pp. 56-63.
12. Lakoff., George P. Cognitive Scientist Looks at Daubert. American Journal of Public health / Supplement 1, 2005, Vol 95, No 1.


**Z.Mammadova**

## Adjectives of multisystem languages in linguistic investigations

## Summary

The article deals with the adjectives in developing communicative competence in language faculties and working out effective ways of listening skills.Today the main goal of teaching and learning foreign languages in the global world is developing language learners' ability to use the target language for communication. The process of teaching English should be based on the communicative – functional approach to teaching languages. The whole process of teaching oral speech should be goal-oriented systematic. It will make the process of teaching oral speech more effective. The article is devoted to the adjectives in modern linguistics. While analyzing great attention was given to the facts taken from the literature. One of the important goals of the article is to detect and find out the reasons of literature. The author emphasizes its role in Linguistics. Since its emergence this notion caught the attention. New researches appeared. It is noted that this gives us more power to understand the process clearly. At that time we use the language more competently. The main aim of State program is to form a unique national education by means of ICT and provide qualitative educative opportunity in order to

integrate into worldwide education system. One of the main goals of language learning is to acquire the ability to communicate effectively. It will make the process of teaching oral speech more effective. This article deals with the post nominals in linguistics. The author emphasizes the role of post nominals, referring to the works of scientist that have been researched in this field of linguistics. She emphasizes that since its emergence. The post nominals caught the attention of linguistics and new researches appeared. It is noted that this gives us more power to understand the communication process clearly and use the language more competently. The analysis shows that the components are interrelated. They are interact and complement each other in the process of speech continuum.

**Key words:** cognitive, speech, post nominal, adjective, material

**З.Маммадова**

**Прилагательные в мултисистемных языках на линвистическом соискании**
**Резюме**

В данной статье рассматриваются вопросы обучения устной речи в условиях языкового вуза. Здесь говорится о необходимости внесения радикальных изменений в существующую систему обучения устной речи на иностранном языке. Процесс обучения язык в целом и процесс обучения устной речи должен базироваться на коммуникативно - функциональном принципе. Обучение устной речи должно носить целенаправленный, системный, поэтапный характер, что будет содействовать повышению эффективности данного процесса. В анализе большое внимание обращено на фактом, полученные из литератур. Автор пытается раскрыть роль упражнении. Ссылаясь на работы ученых исследовавших, а также подчеркивает ее важность. Отмечается, что эта дает воспоминать смысл во время анализа еще более ясно, а также более разнообразном колорите. Основной целью Государственной программы является формирование единой обшенациональной среды образования путём внедрения и использование современных информационно-коммуникативных технологий и обеспечением возможностью качественного образования, а также создания условий для интеграции государственной системы образования в мировую систему образовании. Одной из основных целей изучения языка является обладение умением эффективно общаться на изучаемом языке. В статье речь идёт о пост номиналы в сфере лингвистики. Автор пытается раскрыть роль пост номиналов. Она ссылаясь на работы ученых исследовавших эту область лингвистики, а также подчеркивает ее важность в лингвистике. Отмечается, что эта дает воспоминать смысль во время анализа еще более ясно, а также использовать язык в еще более разнообразном колорите. Анализ показывает, что эти компоненты взаимосвязаны. Они в процессе формирования реча взаимодействуют и дополняют друг друга. В течение анализа большое внимание обрашено на лингвистические факты, полученные из лингвистических литератур.

Ключевые слова: когнитив, речь, пост номинальные, прилагательные, материал

Redaksiyaya daxil olma tarixi: 12.05.2019
Çapa qəbul olunma tarixi: 01.06.2019
Filologiya üzrə fəlsəfə doktoru, dosent Məfkurə Hüseynova tərəfindən çapa tövsiyə olunmuşdur.